# Zəfər Günü münasibətilə Türkiyədə təntənəli bayram tədbirləri




Ankara

Ankarada Azərbaycanın Zəfər Gününə həsr olunmuş "Salam Türkün Bayrağına" adlı təntənəli tədbir keçirilib. Tədbir Azərbaycanın Türkiyədəki səfirliyinin, Milliyyətçi Hərəkat Partiyasının nəzdində fəaliyyət göstərən Əhməd Cavad İnstitutunun və TÜRKSOY-un birgə təşkilatçılığı ilə baş tutub.



Tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyənin milli müdafiə, təhsil və səhiyyə nazirləri, çox sayda dövlət və hökumət rəsmiləri, millət vəkilləri və digər tanınmış simalar iştirak ediblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

Azərbaycan - Türkiyə qardaşlığını, qürurverici zəfəri tərənnüm edən qısametrajlı filmin nümayişindən sonra ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov çıxış edərək, 44 günlük Vətən müharibəsində qazanılmış şanlı zəfərin həm qardaşlıq münasibətlərində, həm də türk dünyasının birliyinin güclənməsindəki rolundan danışıb.

Böyük elçi Vətən müharibəsi dövründə Türkiyə Prezidenti və digər dövlət rəsmilərinin Azərbaycanın haqq savaşına siyasi və mənəvi dəstəyinin ikitərəfli münasibətlərin güclənməsinə töhfə verdiyini vurğulayıb.

TÜRKSOY-un Baş katibi Sultan Rayev Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm zəfərin türk dünyasının hər bir guşəsində əks-səda verdiyini, ortaq zəfər kimi qeyd olunduğunu bildirib. Əhməd Cavad İnstitutunun direktoru Ruhi Ersoy çıxışında İsmayıl Qaspıralının "Dildə, fikirdə, işdə birlik" şüarının bu gün gerçək olduğunu, türk dövlətlərinin sevinc və kədərlərini bərabər yaşadığını ifadə edib.

Türkiyə dövləti adından iştirak edən milli müdafiə naziri Yaşar Gülər Azərbaycanın şanlı ordusunun var gücünü səfərbər edərək tarixi torpaqlarını düşmən işğalından azad etməsinin həm Azərbaycan, həm Türkiyə tarixində müstəsna yerinin olduğunu vurğulayaraq, Azərbaycanın gücünün Türkiyənin gücü, Türkiyənin gücünün Azərbaycanın gücü olduğunu qeyd edib.

Tamaşaçılar tərəfindən böyük maraq göstərilən konsertdə Azərbaycan-Türkiyə qardaşlığının simvollarından biri olan "Çırpınırdı Qara dəniz" mahnısı bütün türk dövlətlərini təmsil edən sənətçilər tərəfindən hər biri öz dilində olmaqla səsləndirilərək, bir növ türk dünyasının milli marşı kimi təqdim olunub.

Tədbir çərçivəsində Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfərinə həsr olunmuş sərgi açılıb.



İstanbul

İstanbul Azərbaycan Mədəniyyət Evinin təşəbbüsü və Çekmeköy Bələdiyyəsinin dəstəyi ilə Azərbaycandan Gözəl Sənətlər Gimnaziyasının bir qrup şagirdi və idarə heyətinin iştirakı ilə Qarabağ Zəfərinin 4-cü ildönümü yüksək səviyyədə qeyd olunub. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və hər iki dövlətin himnləri səsləndirilib.

Tədbiri açan mədəniyyət evinin rəhbəri Hikmət Elp yüz il əvvəl ermənilərin Anadoluda və Azərbaycanda törətdikləri vəhşi qırğınlar, yetmiş il sonra isə Qarabağda törədilən soyqırımından bəhs edib. O qeyd edib ki, Qarabağ Zəfəri bütün türk dünyasında yüksək sevinc dalğalarına çevrildi və türklüyün yenidən oyanması üçün təkan oldu. H.Elp həmçinin vurğulayıb ki, qlobal güclərin ermənipərəst mövqeyinə baxmayaraq, bu zəfər, əsrlərdir torpaqlarını itirən türk dünyasında Kipr əməliyyatından sonra əldə edilən ikinci Zəfər oldu.

Tədbirdə çıxış edən Çekmeköy Bələdiyyə sədrinin müavini Fevzi Varlı Azərbaycanın haqq işində yanında olmaqdan və qələbə sevincini bölüşməkdən qürur duyduğunu bildirib.

Azərbaycandan olan tələbələrin həyəcanlı çıxışları ilə yanaşı, qarmonçu Ehsan Esedollahinin rəhbərliyi ilə "Erkin Səsi" musiqi qrupunun çıxışları tamaşaçıları məftun edib.



Samsun

Zəfər Günü Samsunun mərkəzində Cümhuriyyət meydanında qeyd edilib.

Orta Qaradəniz Azərbaycan Türkləri və Türk Soylular Dərnəyinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Zəfəri bizə yaşadan şəhidlərimizin əziz xatirəsi yad edilib.

Mərasimdə Samsunda yaşayan soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər. İştirakçılar əllərində Azərbaycan və Türkiyə bayraqlarını dalğalandırıb, vətənpərvərlik ruhunda şeir və mahnılar ifa ediblər. Dərnəyin fealları şəhidlərimizin təsviri əks olunmuş köynəklər geyiniblər.

Orta Qaradəniz Azərbaycan Türkləri və Türk Soylular Dərnəyinin sədri Məsudə Vəliyeva Altun 44 gün ərzində baş verənlər, cəbhədən aldığımız müjdəli xəbərlər və bütövlükdə Vətən müharibəsinin geniş xronikası barədə tədbir iştirakçılarına məlumat verib. Qeyd olunub ki, 8 Noyabr - Zəfər Günü xalqımızın çoxəsrlik tarixinə əbədi həkk olunub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və hərbçilərimizin qəhrəmanlığı ilə 30 illik işğala 44 gündə son qoyulub, suverenliyimiz bərpa edilib. Vətən müharibəsindən dərhal sonra işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılması Azərbaycan dövlətinin gücünün göstəricisi kimi qiymətləndirilib.



Manisa

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) və Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş "Salam Türkün Bayrağına" adlı tədbir təşkil olunub.

Yunus Əmrə Mədəniyyət Parkındakı "İrfan Məclisi"ndə təşkil edilən tədbirdə əvvəlcə Türkiyə və Azərbaycan şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, iki ölkənin dövlət himnləri səsləndirilib.

Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Şentürk Hoşgül Zəfər Gününə həsr olunmuş tədbirdə iştirak etdiyinə və dəstəyini əsirgəmədiyinə görə Yunus Əmrə Bələdiyyəsinin sədri Semih Balabana, Manisa Büyükşəhər Bələdiyyəsinin Baş katibi Burak Dəstəyə və Manisanın digər bələdiyyələrinə, yerli icra qurumlarına, ictimai təsisatlara, siyasi partiyalara və media nümayəndələrinə minnətdarlığını bildirib.

Tədbirə dəvət olunan Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun Türk Dünyası İctimai, iqtisadi və siyasi əlaqələr kafedrasının müdiri, professor Vəfa Kurban, Ermənistanın Azərbaycana qarşı işğalçılıq, etnik təmizləmə, separatçılıq və terror siyasəti barədə məruzə ilə çıxış edib. Hazırladığı təqdimatda törədilən cinayətləri faktlarla diqqətə çatdıran məruzəçi qlobal arenada nümayiş olunan ikili standartlardan və onun ağır nəticələrindən danışıb. Qarabağın işğal planı və bu proseslərin xronologiyası təqdim olunan məruzədə azərbaycanlılara qarşı dəfələrlə törədilmiş soyqırımlarının işğaldan azad olunan həmin ərazilərdə kütləvi məzarlıqların tapılması ilə sübuta yetirildiyi bildirilib.

Alim Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi nəticəsində ölkəmizin İkinci Qarabağ müharibəsindəki Qələbəsinin təmin olunduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük bacarıq və qətiyyəti, yüksək peşəkarlıq nümayiş etdirən hərbçilərimizin qəhrəmanlığı ilə Vətən müharibəsi xalqımızın Böyük Zəfəri ilə başa çatıb.

Tədbir bədii hissə ilə davam edib.



İğdır

İğdır Azərbaycan Evi və İğdır Azərbaycan Evi Dərnəyinin birgə təşkilatçılığı ilə İğdır şəhərində keçirilən bayram tədbirində yerli icra qurumlarının, siyasi partiyaların və ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbir şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Açılış nitqi ilə çıxış edən İğdır Azərbaycan Evinin sədri Ziya Zakir Acar bildirib ki, Qarabağın azadlığı təkcə Azərbaycan və Türkiyənin qələbəsi deyil, həm də türk dünyasının zəfəridir. Türkiyənin ölkəmizə göstərdiyi siyasi dəstəyə toxunan natiq 30 illik işğala cəmi 44 gün ərzində Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və hərbçilərimizin qəhrəmanlığı sayəsində son qoyulduğunu vurğulayıb.

İğdır Azərbaycan Evi Dərnəyinin sədri Serdar Ünsal şəhidlərimizi rəhmətlə yad edib: "Çanaqqala ruhu Qarabağda ikinci dəfə yaşandı və əldə edilən Zəfər türk millətinin Qurtuluş savaşından sonra yüzillik ərzində ikinci zəfəridir. Qarabağ zəfəri tarixi, strateji və iqtisadi baxımdan, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq və qardaşlığın, iman və könül birliyinin ən mühüm nümunələrindən biridir".

Tədbir bədii hissə ilə davam edib.



Eskişehir

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərin 4-cü ildönümü münasibətilə Eskişehirdə tədbir keçirilib. Tədbir Eskişehir valiliyi, Azərbaycanın Türkiyədəki səfirliyi, Eskişehir Mədəniyyət və Turizm Müdirliyi, Türk Dünyası Vəqfi və Eskişehir Azərbaycanlılar Dərnəyinin birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

"İki dövlət, bir Zəfər. Qarabağın azadlığı" adlı tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov iştirak edib. Eskişehir valisi Hüseyin Aksoy, Azərbaycan Silahlı Qüvvələrinin Türkiyədəki hərbi attaşesi, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Zeynalov, Eskişehir Azərbaycanlılar Dərnəyinin sədri Cavid Aydın, Türkiyənin dövlət qurumlarının yüksək vəzifəli şəxsləri və digərlərinin qatıldığı tədbirdə Rəşad Məmmədov Azərbaycanla Türkiyə arasındakı münasibətlər, eləcə də regional proseslər barədə danışıb. Səfir çıxışında İkinci Qarabağ müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlardan bəhs edib. Tədbirdən sonra səfir Rəşad Məmmədov və vali Hüseyin Aksoyun iştirakı ilə Eskişehirdə "İki dövlət, bir Zəfər. Qarabağın azadlığı" mövzusunda təşkil olunan sərginin açılışı olub. Sərgidə Qarabağın azadlığı və şanlı Zəfərimizin rəmzlərinin fotoşəkilləri yer alıb.

Azərbaycanın Zəfər Gününün 4-cü ildönümü və Dövlət Bayrağı Günü münasibətilə İstanbul şəhərindəki tarixi Qalata qülləsi Azərbaycanın Dövlət Bayrağı və xarıbülbül rəsmləri ilə işıqlandırılıb.

İşıqlandırılma Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun təşəbbüsü və Türkiyənin bir sıra dövlət qurumlarının dəstəyi ilə həyata keçirilib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2024.- 12 noyabr (№ 248).- S.10.